BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2010*

# QEYRİ-ŞÜURİNİN FƏLSƏFİ MAHİYYƏTİ FREYDİZM KONTEKSTİNDƏ

**K.N.QƏHRƏMANOVA**
***Bakı Dövlət Universiteti***
***imanov gamid@gmail.com***

*Psixika insan varlığına məxsus olan ən mürəkkəb və ziddiyyətli fenomendir. Uzun əsrlər boyu bu ziddiyyətli fenomenin mahiyyətinə nüfuz etmək, onun müəmmalarını öyrənmək mümkün olmamışdır. İyirminci yüzillikdə bu boşluğu insan psixikasının öyrənilməsi üçün psixoanaliz metoduna başlanğıc vermiş Avstriya alimi Z.Freyd doldurmuşdur. Freyd insan psixikasının ayrılmaz hissəsini təşkil edən qeyri-şüuri proseslərin elmi mənzərəsini yaratmış, bu fenomenin bir sıra təzahürlərini öyrənməyə çalışmışdır.*

*Məqalədə qeyri-şüurinin fəlsəfi mahiyyətindən, onun strukturundan, şüuri ilə əlaqəsindən və insan həyatı üçün kəsb etdiyi əhəmiyyətindən söhbət açılır və oxucuya belə bir fikir təlqin edilir ki, insanın heç də bütün hərəkətləri şüur aktları ilə tənzimlənmir.*

İnsan varlığının bioloji və psixi tərəflərinin vəhdətini əks etdirən fəlsəfi antropologiyada bilavasitə insan problemi ilə bağlı olub, mühüm fəlsəfi və təbii-elmi əhəmiyyət kəsb etməklə elmi təfəkkürün inkişafını istiqamətləndirən aktual məsələlərdən biri insan psixikasında şüuri və qeyri-şüurinin nisbəti problemidir. Fəlsəfi antropologiyada qeyri-şüuriyə marağın gündən-günə artması təsadüfi olmayıb, belə bir amillə bağlıdır ki, yaşadığımız günlərdə özünüdərkin getdikcə artması və idraki qanunauyğunluqların şüurlu idarə olunması problemi əhəmiyyətli dərəcədə şüurdan gizli qalan, lakin ona güclü təsir qabiliyyətinə malik psixoloji fenomenlərə söykənir. Bu halda söhbət insan psixikasında özünə geniş yer almış qeyri-şüuri proseslərdən gedir. Əslində, qeyri-şüuri fenomenə durmadan artan maraq müasir cəmiyyətin, sosial-psixi proseslərin, ictimai praktikanın mürəkkəbləşməsini ifadə edən obyektiv tələbatı ifadə edir (1, 405-427). Qeyri-şüuri mühəndis psixologiyasının, kibernetikanın, neyrofiziologiyanın, linqvistikanın, sənətşünaslığın, pedaqogikanın, psixologiyanın, fəlsəfənin və insan haqqında digər elmlərin tədqiqat obyektidir. Hələ kifayət qədər dərindən öyrənilməmiş, özündə cavablandırılması vacib olan bir sıra sualları yaşadan mövzuya belə çoxplanlı marağın yaranması istər-istəməz qeyri-şüurinin təsvirində terminoloji və məzmunlu rəngarənglik doğurur. Belə ki, qeyri-şüuri sahəyə pataloji halları, yuxu görməni, intuitiv idrakı, avtomatizm səviyyəsinə gətirilmiş və adət edilmiş hərəkətləri də aid edirlər. Digər halda qeyri-şüuri neqativ planda xarakterizə olunur: şüura aid olmayan, şüurla tənzimlənməyən, şüurun nəzarətindən kənarda qalaraq psixi və ya fizioloji hadisələr kimi funksiallaşan, meydana gəlməsi və cərəyan etməsi qeyri-ixtiyari səciyyə daşıyan hər cür mənəvi proseslər də bu sferaya aid edilir.

Məlumdur ki, fəlsəfədə uzun müddət mövcud olmuş rasionalizm ənənələrinə

görə insana və onun davranış motivlərinə yalnız şüurlu həyatın təzahürü kimi baxılmış və bu kontekstdə insan ancaq "zəkalı insan" səviyyəsində başa düşülmüşdür. Lakin Yeni dövr fəlsəfəsindən başlayaraq (XVI-XVII əsrlər) fəlsəfi antropologiyada qeyri-şüuri də elmi status qazanaraq elmi tədqiqatlar spektrində üstün mövqe tutmağa başlamışdır. Bu baxımdan qeyri-şüuri anlayışının izahına cəhdin fəlsəfi təfəkkürdə öz başlanğıcı olmuşdur (8, 72-175).

Platona görə qeyri-şüuri yeni, naməlum hadisə haqqında "gizli bilikdir". C.Lokk və R.Dekarta görə isə qeyri-şüuri şüura və biliyə bərabər, lakin psixikaya əks olan mənəvi hadisədir. Leybnits və Kant qeyri-şüurinin tədqiqində problemin ontoloji və qnoseoloji aspektlərini fərqləndirmişlər. Leybnits qeyri-şüurinin tədqiqində psixi proseslərlə şüurun müxtəlif təzahürlərinin əlaqəsinin arasıkəsilməzliyi prinsipindən çıxış etmişdir. O, qeyri-şüurinin timsalında şüurun yaranmasına başlanğıc verən psixi əsası görmüş və bu prosesləri yatmış və ya sönmüş məlumatlar ("Petioto perseption"), qaranlıq ruhun informasiyaları adlandırmışdır. Kant qeyri-şüurinin rasional idrak səviyyəsində dərk olunması məsələsini irəli sürsə də, qaldırdığı sualı mənfi cavablandırmışdır (3, 306). Kantın inamına görə qeyri-şüuri rasional idrak vasitəsilə dərk oluna bilməz. Kanta görə, qeyri-şüuri – biliyin, təcrübənin şüurlu məzmunundan əvvəl baş verən aprior sintezidir. Qeyri-şüuri haqqında təsəvvürlərin sistemləşdirilməsinə ilk təşəbbüs Hartman tərəfindən göstərilmişdir, lakin o, Leybnitsin bu sahədəki tədqiqatlarının rasional toxumunu Kantın mülahizələri ilə əlaqələndirməyi bacarmamışdır. Kantın mülahizələrinə söykənmək əsasında Hartman qeyri-şüurini varlığın metafizik mahiyyəti dərəcəsinə qaldıraraq insan şüuru ilə qeyri-şüuri arasında keçilməz sərhəd yaratmışdır. Qeyri-şüuri haqqında Şopenhauerin də baxışları müəyyən maraq kəsb edir. Şüuri və qeyri-şüurinin vəhdəti haqqında Leybnits ideyasına əsaslanan Şopenhauer bu vəhdətin əsasını dünyanın ilahi-metafizik mahiyyətində deyil, təbii həyatın başlanğıcında, təbiətin özündə axtarmışdır. Qeyri-şüuriyə münasibətdə öz sələflərindən daha irəliyə gedən və onun fəaliyyətinə geniş meydan açan Şopenhaurə görə qeyri-şüuri universal səciyyə daşıyaraq hər şeyi, o cümlədən, şüurun özünü də müəyyən etməklə istər bitki, istər heyvan, istərsə də insan həyatında eyni miqyasda təzahür edir.

Təbii-elmi qanunauyğunluqların fəlsəfi şərhini verməyə çalışan sonrakı tədqiqatçılar da öz şəxsi təcrübələrində şüura üstünlük verməklə onun formalaşmasında qeyri-şüurinin də az rol oynamaması qənaəti ilə bir sıra anlayışlar (2, 512-518), o cümlədən "qeyri-şüuri duyğu" (Fexner, Seçenov), "qeyri-şüuri əqli nəticə" (Helmholts, Vundt, Seçenov), "qeyri-şüuri emosiyalar" (Darvin), "qeyri-şüurinin psixi xarakteristikasını və şüurla ayrılmaz əlaqəsini" aydınlaşdırmağa çalışmışlar. Aparılmış tədqiqatlar göstərir ki, psixika anlayışı öz bazasına və idraki tutumuna görə şüur anlayışından qat-qat genişdir. Şüurla müqayisədə xeyli geniş və daha zəngin çalarlara malik olan insan psixikası emosional və idraki hisslərdən, aydın dərk olunmuş məntiqi təfəkkür formalarından tutmuş qeyri-şüuri və ya yarımşüuri hallaradək ən müxtəlif fenomen və prosesləri ehtiva edir. Şüuru özünün mərkəzində yerləşdirən, onu özünün altsisteminə və ya elementinə çevirən psixi fəaliyyətin elə formaları vardır ki, onlar şüur səviyyəsinə yüksələ bilməyib, onun alt qatlarında məskunlaşaraq şüura qədərki və ya şüuraltı formada mövcud olurlar. İnsan şüurunda təmsil olunmayıb, zəka sahəsindən kənarda qalan və buna görə də insan tərəfindən bilavasitə nəzarət oluna bilməyən psixi hadisələrin, halların, fəaliyyət növlərinin məcmusu qeyri-şüuri anlayışı ilə təsbit olunur.

İnsanın psixi fəaliyyət zonasında yerləşən aydın şüur sahəsi o qədər də geniş deyil. Dərk olunmuş və məntiq qanunları əsasında qərarlaşmış duyğular, qavrayışlar, təsəvvürlər, anlayışlar, mühakimələr, əqli nəticələr, ideyalar, prinsiplər və s. rasional idrak elementləri bu zonada məskunlaşmışdır (6, 8-22). Psixikanın strukturunda bu zonadan sonra minimal şüur, daha sonra isə dərk olunmamış, məntiqdən məhrum mənəvi proseslər gəlir. Bu sonuncular isə bəzən instinktlər, maraqlar, həvəslər, ehtiraslar, şəhvətlər, meyllər, bəzən qavrayışlar, təsəvvürlər, təfəkkür elementləri kimi, bəzən somnambulizm (yuxulu-yuxulu gəzişmə), intuitsiya, yaradıcılıq motivləri, bəzən də yuxugörmə, ağlın başdan çıxması affekt, stress halları kimi çıxış edir. Qeyri-şüuriyə həmçinin təqlid etmə, orqanizmin daxili təkanlarının törətdiyi yeni ideyaların qəflətən aydınlaşması ilə müşayiət olunan yaradıcılıq ruhlanması, şüurlu cəhdlərə müyəssər olmayan mürəkkəb məsələlərin birdən-birə, həm də şüurun xüsusi gərginliyi olmadan həll edilməsi, unudulmuş hadisələrin qeyri-ixtiyari xatırlanması və s. fenomenlər də daxildir. Qeyri-şüuri qeyri-real və ya mistik hadisə olmayıb, mənəvi həyatımızın obyektiv reallığıdır. Fizioloji baxımdan o sanki şüurun qoruyucusu funksiyasını yerinə yetirərək ehtiyac olmayan hallarda şüurlu fəaliyyətin beyində yaratdığı gərginliyi xeyli azaldır. Əgər insan zəkası fasiləsiz olaraq hər bir psixi akta, fərdin hər bir hərəkət və fəaliyyətinə nəzarət funksiyasını yerinə yetirmiş olsaydı, o öz üzərinə həddən ziyada ağır yük götürmüş olardı. Əgər insan fəaliyyətinin hər bir elementi ondan öz dərkini tələb etsəydi, o halda insan şəxsi fəaliyyətinin nəticələri haqqında nə dərindən düşünməyə, nə ağıllı hərəkət etməyə, nə də rasional qərar verməyə imkan tapardı. Bəs, onda görəsən qeyri-şüuru nədir və şüurun dinamik hallarının dəyişməsi və bir-birini əvəzləməsi hadisəsi necə baş verir? İnsan öz mənəvi həyatında ruhi zülmətdən həyatın qeyri-adi qavranılmasına necə keçir? Bütün bu sualların aydınlaşdırılması məşhur Avstriya həkimi, filosofu və psixoloqu Z.Freydin adı ilə bağlıdır (9, 10).

Z.Freyd qeyri-şüurunun tədqiqi üçün xüsusi üsul – psixoanalizm metodunu yaratmışdır. Bu metod qeyri-şüurini müstəqil fenomen kimi deyil, hər şeydən əvvəl, onun daşıyıcısının – konkret şəxsiyyətin xarakteristikası kimi tədqiq etməyi nəzərdə tutur. Freydin psixoanalizinin çıxış nöqtəsini "qeyri-şüuri psixika" anlayışını təşkil edir. Z.Freyd qeyri-şüurinin fizioloji təbiətini deyil, psixi təbiətini izah etmiş və bunu belə bir motivlə bağlamışdır ki, əgər psixika (ruh) məna əlaqələrinin müəyyən edilməsidirsə, fizioloji proses belə keyfiyyətdən məhrumdur. Qeyri-şüuri proseslərin bilavasitə müşahidəsi üçün Freydin sərəncamında fiziki eksperimental vasitələrin olmaması və onun şüuri və qeyri-şüurunun sosial şərtlənməsinin real mexanizmini başa düşməməsi buna səbəb olmuşdur ki, Freydin təklif etdiyi metodda qeyri-şüuri özünə qapanmış sistem kimi dərk olunmuşdur. Freydin böyük xidməti ondadır ki, o, bu mexanizmin mövcudluğunu yalnız qeydə almış və ən yaxşı halda isə onun təsvirini vermişdir. Psixikanın qeyri-şüuri hissəsini elmi diqqətin və xüsusi tədqiqatın predmetinə çevirməklə Freyd güman edirdi ki, o psixoanaliz metoduna başlanğıc verməklə sanki bizi vulkanın təpəsinə gətirib çıxarmış və oradan qeyri-şüurinin qaynar kraterinə baxmağa məcbur etmişdir.

Psixiatrik praktikanı həyata keçirən Freydin hipnoz üzrə təcrübələri sübut edirdi ki, trans (hipnoz və ya ekstaz vəziyyətlərdə şüurun tutulması) vəziyyətlərdə insanlar qeyri-real şeylərin reallığına inandıqları halda, qeyri-trans vəziyyətlərdə onlar reallığın əksər hissəsini dərk edə bilmirlər. Freyd inanırdı ki, insanın ruhi fəaliyyətinin çox hissəsi su altında qalan və buna görə də, sualtı cərəyanlarla idarə

olunan aysberqə bənzəyir. İnsan psixikasında dərk olunmuş komponentlərlə (duyğu, qavrayış, anlayış, ideya, prinsip, qanun və s.) yanaşı zəka və sosial normalar tərəfindən gizli şəraitə keçirilənədək özlərinin intellektual gücünü tam şəkildə göstərmək üçün həmişə əlverişli məqam gözləyən dərk olunmamış, qaranlıq, hətta vəhşi təbiətli elementlər də mövcuddur. İnsan psixikasını sistemli öyrənmək əsasında Freyd bu qərara gəlmişdi ki, insanda əsəb xəstəliklərinin, o cümlədən nevrozun yaranmasının səbəbləri ruhun zirzəmisində, qeyri-şüurinin tüğyan etdiyi sahədə axtarılmalıdır. Freyd özünün empirik səciyyəli psixoanaliz metodunu məhz psixikanın şüuraltı hallarını öyrənmək və onların simvollarda, yuxugörmələrdə, müstəqil assosiyalarda, fantaziyalarda, yazılı və şifahi nitqlərdə yol verilən xətalarda, rəsm əsərlərində, simptomatik hərəkətlərdə, nevrotik simptomlarda və s. hadisələrdə təzahürlərinin təhlili əsasında işləyib hazırlaya bilmişdi. Psixoanaliz metodu Freydə ruhi xəstəliklərin müstəsna dərəcədə dolaşıq kələfinə nüfuz etməyə və bu kontekstdə bir sıra nevroz həyəcanlanmaların mənbəyini aşkara çıxarmağa imkan vermişdi.

Qeyri-şüuriyə ilk yaxınlaşmada Freydin sxemi belə görünürdü: insana təbiətən bir sıra şiddətli meyllər verilmişdir və bu fenomenlər sırasında psixikanın varlığını müəyyən edən və – "libido" adlanan cinsi meyl aparıcı rol oynayır (5, 23-27). Libidonun psixi enerjisini insan psixikasının başlıca mənbəyi sayan Freyd şüurun inkişafını uşaqda anadan olmasından az sonra yaranan seksual inkişaf fazaları ilə bağlayırdı. O, belə düşünürdü ki, insanın seksual meylinin azad ifadəsi hər zaman cəmiyyətin ədəb qaydaları, əxlaqi normaları, müxtəlif qadağan prinsipləri, əməl olunmasına ciddi nəzarət olunan tabular vasitəsilə məhdudlaşdırılır. Qadağan olunmuş arzular, hərəkətlərin həya motivləri, cinayət hərəkətləri, bir sözlə, insan idrakı qarşısında açıqlana bilməyən hər şey qeyri-şüuri sahəyə sıxışdırılaraq insanın əhval-ruhiyyəsinə və davranışlarına ciddi təsir imkanlarına malik olan psixi aləmdə yaşamaqda davam edirlər.

Freyd öyrədirdi ki, libidonun enerjisi xaricə çıxış yolu tapmadan orqanizmdə fasiləsiz toplana bilməz. Psixi enerji müəyyən həddə yaxınlaşdıqda psixikanı orqanizmin fəsadlarından qoruya biləcək mexanizm işə düşür. Libidonun enerjisi idman, iş, yaradıcılıq timsalında özünün tədricən boşalma formalarını tapır. Bu proses sublimasiya adlanır. İnsan daşıdığı libido enerjisinin boşalması üçün müvafiq üsullar tapmadıqda – və bu enerji orqanizmdə toplanmaqda davam etdikdə psixikanın pozulması və ruhi xəstəliklərin baş verməsi ehtimalı artır (7, 54-61).

Z.Freydin XIX əsrin sonu və XX əsrin əvvəllərində yaradılmış təlimi iki funksiyanı yerinə yetirirdi: bu təlim, bir tərəfdən, ruhi xəstəliyə tutulmuş xəstələrin müalicə metodu kimi istifadə edilir, digər tərəfdən, qeyri-şüuri hadisələrin və proseslərin insan həyatında və bütün mədəniyyət sisteminin inkişafında rolunu izah edən nəzəriyyə kimi təqdim olunurdu. Buna görə də, Freydizm təliminin metodu psixoanaliz, nəzəriyyəsi isə freydizm adlanırdı.

Freydə görə insan psixikası amorf fenomen olmayıb, mürəkkəb təşkili və struktura malik özünütəşkiledən sistemdir, o şüurdan, şüuraltı elementlərdən və şüursuzluq səviyyəsindən ibarətdir. Obrazlı desək, şüur – psixikanın "aysberq zirvəsi, bütün yerdə qalanlar isə şüuraltı və şüursuzluq hadisələridir". Məhz qeyri-şüuri instinktlər və brinci növbədə, seksual şəhvətlər (libido) şəxsiyyətin davranış motivlərini idarə edən mənəvi qüvvələrdir.

Freydin konsepsiyası təkamülləşən təlim olub, öz inkişafında iki mərhələdən keçmişdir: bu təlimin XIX əsrin sonundan – 1920-ci ilədək davam edən birinci mər-

hələsində Freyd belə nəticəyə gəlmişdi ki, bütün bəşər mədəniyyəti sublimasiyanın, başqa sözlə libidonun enerjisinin yaradıcılıq proseslərinə və ya fəaliyyətin digər yüksək sahələrinə, məsələn, siyasətə, hüquqa, elmə və s. tətbiqi ilə bağlıdır (11, 416-424). Beləliklə, Freydə görə, mədəniyyətin əsasını insanın rasional fəaliyyəti deyil, qeyri-rasional bioloji fəaliyyəti təşkil edir. Freydzmin inkişafının ikinci mərhələsi 1920-1930-cu illəri əhatə edir. Bu mərhələdə Freyd psixikanın dinamik konsepsiyasını yaratmış və onun plastaları müəyyənləşdirmişdir.

Freyd psixikanın şüuri və qeyri-şüuri kimi iki təbəqəni (plastanı) ehtiva edən ilkin sxemində müvafiq dəyişiklik etdi [8, 175-85]. Cəmiyyətin təsirindən abstraksiya ediləcəyi təqdirdə şüur fenomeninin başa düşülməyəcəyini nəzərə alan Freyd psixika haqqında təlimini sonralar bir daha nəzərdən keçirərək 1923-cü ildə çap etdirdiyi "Mən və O" adlı əsərində insan psixikasının strukturunun yeni sxemini verdi. O, insan psixikasını üç təbəqəyə (plasta) ayırdı: "İd", "Eqo" və "Super Ego". Fredin təbirincə, psixikanın ən dərin və güclü təbəqəsi şüurun hüdudlarından kənarda yerləşən İd ("O") sayılır. "İd" xarici aləmin reallığını duymadan və onunla hesablaşmadan özündə və yalnız özü üçün yaşayır. Burada insanın dərk olunmamış psixi prosesləri, o cümlədən keçmiş təcrübələri, emosiyaları, müxtəlif bioloji impulsiv (qeyri-iradi) arzuları, ehtirasları, şəhvətləri, fikirləri, affektləri, şüurdan sıxışdırılıb çıxarılmış ideyaları və digər mənəvi hadisələri yerləşir. ""İd"-in strukturu dərk olunmamış iki seksual instinktlə: a) həyatı təsdiq edən və insanın həyat eşqini ifadə edən Eros və b) insanın ölümə cəhdi ilə bağlı olan Tanatosla bağlıdır. Freyd insanların ölümə həvəs təlimini sonralar inkişaf etdirməsə də, bu anlayışın nəzəriyyəyə daxil edilməsi ilə insanlar arasında kütləvi hal alan intihar məsələsinin elmi izahı xeyli asanlaşdı.

Psixikanın öz həcminə görə aysberqin sualtı hissəsi ilə müqayisə olunan möhtəşəm "İd" bünövrəsi üzərində insanın şüurlu fəaliyyətinin o qədər də böyük olmayan, lakin onunla fasiləsiz təmasda olan ikinci təbəqəsi - "Eqo" ("Mən") yüksəlir. "Eqo" – insanın "Mən"idir. "Mən" şəxsiyyətin şüuri və onun özünüdərkidir. "Mən"in başlıca funksiyası – "İd" vasitəsilə təmsil olunan emosiyalar aləmi ilə real xarici aləm arasında, insanların həvəsi, istəyi, meylləri ilə onların təminatı arasında vasitəçi rolunu oynamaqdır.

Psixikanın üçüncü təbəqəsini "Super–Eqo" ("Fövqəl – Mən") təşkil edir. "Eqo"nun üzərində yüksələn və psixikanın ən yüksək mərhələsini təşkil edən bu təbəqə fərdin sosiallaşdırılması prosesində qərarlaşan sosial normaların introyeksiyası yolu ilə formalaşır. Bu təbəqəyə bəşəriyyətin tarixi inkişafı ilə yaradılan elm, əxlaq, incəsənət və mədəniyyət sistemində mövcud olan elementlər daxildir. Cəmiyyətin idealları və sosial normaları, insanın borc sahəsi və əxlaq senzurası ictimai şüur formaları, bütün mümkün qadağanlar və qaydalar sistemi, başqa sözlə insanın mənimsədiyi və hesablaşmalı olduğu bütün komponentlər bu təbəqədə məskunlaşır. "Fövqəl-mən" insanın mənəvi sahəsi, obrazlı desək, "Mən"in keşikçisidir.

Freydə görə psixikanın təbəqələri bir-birindən mütləq sərhədlərlə ayrılmır, onların arasında qarşılıqlı keçidlər, qarşılıqlı təsirlər baş verir. Freyd yazırdı: "Şüurlu proseslərin əksəriyyəti yalnız qısa zaman müddətində şüurlu halda olurlar və onlar tezliklə gizli hala keçirlər" (11, 341).

Freydə görə şəxsiyyətin mənəvi struktur elementlərinin iyerarxiyası öz başlanğıcını qeyri-şüuridən götürür. Freyd inanırdı ki, qeyri-şüuri insan psixikasında birinci və aparıcı rol oynayır. Başlanğıcını "İd"-dən götürən psixika dialektik inkişaf prosesində fərdi zəka (Eqo) və sosial zəka (Super-Eqo) mərhələlərindən keçərək

yenidən "İd"-ə qayıdır. Freydin dərin inamına görə həzz və nəşə prinsipinə tabe olan "İd" insanın davranış və hərəkətlərinə həlledici təsir edərək onun fikirlərini, hisslərini, davranış normalarını müəyyən edir. Şüur sanki qeyri-şüuri üzərinə çəkilmiş nazik bir örtükdür. Bu örtüyün altındakı qeyri-şüuri nəinki xarici müşahidəçidən, hətta onun substratı olan subyektin özündən də gizli yaşayır. Psixikaya münasibətdə şüur çay səthindən qayıdan projektor işığının parıltısını xatırladır.

Şüuraltı sahə özünü anormal (yuxugörmə, təsadüfi buraxılmış səhvlər, yazı xətaları və s.) və qeyri-anormal (nevroz, psixoz və s.) hadisələr kimi büruzə verir. Şüuri ilə qeyri-şüuri qüvvələr arasında mövcud olan münaqişə zəka ilə fərdiliyin ziddiyyəti formasında təzahür edir. Freydin təbirincə desək, belə hallarda zəka "xarici qüvvələrə söykənərək mindiyi atın üstün qüvvələrini cilovlamağa çalışan suvariyə bənzəyir" (10, 22).

Freydin fikrincə, bu münaqişə əsəb xəstəliyinə mübtəla olmuş adamların "Mən"inin öz xüsusi evində – ruhunda qüdrətinin sərhədləri ilə rastlaşdığı hallarda daha kəskin xarakter alır. Freyd yazırdı: "İnsanda birdən-birə elə fikirlər yaranır ki, heç bilmirsən onlar haradan meydana çıxırlar və belə hallarda onları özündən uzaqlaşdırmaq üçün heç bir şey edə bilmirsən. Belə çıxır ki, bu yad qonaqlar "Mən"ə tabe olanlardan daha qüvvətlidir" (11, 196).

Qeyri-şüuri probleminin mahiyyətini açıqlayarkən freydizmin görkəmli nümayəndələrindən olan İsveçrə psixiatrı K.Q.Yunqun tədqiqatlarını və bu sahəyə gətirdiyi yenilikləri də nəzərə almaq lazımdır. Yunqun psixoanalizə gətirdiyi ən möhtəşəm yenilik bundan ibarətdir ki, o insanı erotik varlıq olaraq "İd"-i ("O"-nu) diferensiallaşdırmağa çalışmışdır. Yunq qeyri-şüuridə fərdin təcrübəsinin ("Mən") psixikada inikası olan "fərdi qeyri-şüuri"dən savayı daha bir təbəqəni – keçmiş nəsillərin təcrübəsinin psixikada inikası olan və onun sonralar "arxetiplər" adlandırdığı "kollektiv qeyri-şüuri" psixoloji strukturu da seçib ayırmışdır. Əgər Freyd həyəcanlar kompleksini insanların şəxsi həyatı ilə bağlayırdısa, Yunq arxetipləri onların kollektiv həyatı ilə əlaqələndirirdi. Arxetiplər insan psixikasında tarixən möhkəmlənib, nəsildən-nəsilə irsən ötürülürlər. Arxetiplər simvollarla sıx bağlı olub, adətən yuxugörmələrdə təzahür edirlər. Yunqun inamına görə keçmiş nəsillərin təcrübəsindən yaranan arxeotiplər miflərin, yuxugörmənin, bədii yaradıcılıq simvollarının əsasını təşkil edir (13). Arxetiplər – insan nəsillərinin psixi həyatının dərinliklərində qərarlaşmış davranışların, anadangəlmə proqramların, məqsədlərin sistemidir.

On doqquzuncu yüz illiyin sonlarında irəli sürülmüş freydizm təlimi özünün bir sıra çatışmazlıqlarına (xüsusilə, onun biologizmi, psixi proseslərdə şüurun rolunun azaldılması, özünü doğrultmayan nəticələr və s.) bir sıra ölkələrdə hələ də prioritet nəzəriyyələrdən sayılır. Belə nəzəriyyələrdən fransız psixoanaliz məktəbini, psixoanalizin alman akademiyasını, Çikaqo psixoanaliz institutunu və digər mərkəzləri göstərə bilərik.

Hər bir təbii-elmi təlim kimi freydizm də nisbi həqiqi nəzəriyyə olmaq etibarilə müəyyən nöqsanlardan xali deyil. Lakin bununla yanaşı insan təşəxxüsünə "psixoloji zərbə" vurmuş bu möhtəşəm nəzəriyyənin pozitiv cəhətlərini də nəzərdən qaçırmaq olmaz. Fikrimizcə, bu müsbət cəhətlər aşağıdakılardır: 1) şüurun sosial şərtlənməsi; 2) psixi və qeyri-şüurinin vəhdəti; 3) qeyri-şüurinin simvollarda (dil və fəaliyyət) ifadə olunması və onun bu "izlər" vasitəsilə dərk oluna bilməsi.

Bütövlükdə qeyri-şüuri anlayışının tarixi probleminə toxunaraq qeyd etmək istərdik ki, onun formalaşması, hər şeydən əvvəl, dünyagörüşü xarakterli tədqiqatlar

çərçivəsində baş vermişdir. Buna görə də qeyri-şüuri anlayışının inkişafı gedişində irəli sürülmüş başlıca problemlər onun təbiəti, dərki, obyektiv gerçəklik sistemində statusu, elmi, biliyə münasibəti, strukturu, rasional idraki imkanları ilə bağlı olmuşdur.

Hazırda qeyri-şüurinin konkret elmi tədqiqi ilə bağlı kifayət qədər zəngin material toplanmışdır. Yalnız bir faktı xatırlatmaq kifayətdir ki, 1979-cu ildə Tbilisidə (Gürcüstan Respublikası) çağrılmış Beynəlxalq simpoziumda bu materiallar geniş müzakirə edilib, elmi konteksdə ümumiləşdirilmişdir (12, 4). Adı çəkilən simpoziumda elmlərarası diskussiyalar üzərində qeyri-şüuri fenomenlərin müxtəlif interpretasiyalarının konseptuallaşdırılması zərurəti qeyri-şüurini qeydə alan anlayışların vahid təbii-elmi və fəlsəfi sisteminin yaradılması məsələsini ortaya qoymuşdur. Qeyri-şüurinin tədqiqini şüurinin tədqiqi metodologiyası əsasında aparılmasını təklif edən tədqiqatçıların əksəriyyəti (F.V.Bassin, A.E.Şeroziya, A.S.Prenqitvili, E.V.Şoroxova, A.N.Dmitriyev, D.İ.Dubrovski və b.) bu problemlərin həllini şüuri və qeyri-şüurinin vahid nəzəriyyəsinin yaradılması problemi ilə əlaqələndirərək və bu zaman belə dayaq nöqtəsinə istinad edirlər ki, şüurla əlaqəsi qeyri-şüurinin səciyyəvi cəhətlərindən biridir. Bu əlaqənin mahiyyəti nədən ibarətdir? Müasir elmi ədəbiyyatda bu əlaqənin xarakteri ikili standartda başa düşülür:

1) psixikanın elementləri olmaq etibarilə şüuri və qeyri-şüuri bir-biri ilə əlaqəlidir. Qeyri-şüuri – şüurdan əvvəl yaranan və onun formalaşmasını təmin edən psixi prosesdir (E.F.Bassin, E.V.Şoroxova).

2) qeyri-şüuri "şüurluluq" ilə yanaşı şüurun strukturuna daxildir (S.L.Rubinşteyn, V.M.Kvaçaxiya).

V.M.Kvaçaxiya qeyd edir ki, birinci nöqteyi-nəzərin tərəfdarları və onların əleyhidarları (onlar qeyri-şüuriyə qeyri-psixi hadisə kimi baxaraq onun şüurla heç bir analoqunun olmadığını qəbul edirlər) sadəcə bunda səhv edirlər ki, onlar "şüur" və "şüurluluq", "dərk etmə" anlayışlarını fərqləndirmirlər (4).

V.M.Kvaçaxiyanın fikrincə, bu ona görə baş verir ki, bu baxışın tərəfdarları sadəcə "psixika", "hissiyyat" və "şüur" anlayışlarını həcmcə eyniləşdirirlər. Halbuki, "hissiyyat" anlayışı şüur anlayışı ilə deyil, "şüurluluq" anlayışı ilə eynilik təşkil edir. Buna görə də qeyri-şüurinin təbiətinin aydınlaşdırılması məsələsi onun dərkinin zəruri şərtini təşkil edən şüura münasibətinin aydınlaşdırılması məsələsi ilə sıx bağlıdır.

Qeyri-şüuri haqqında yuxarıda deyilənlər bir daha göstərir ki, qeyri-şüurinin fəlsəfi mahiyyətinin açıqlanmasına aparan yol qeyri-şüuri və şüuri anlayışlarının ümumi nəzəriyyəsinin yaradılmasından keçir.

## ƏDƏBİYYAT


1. Бассин Ф.Б. Проблема бессознательного. М.: Знание,1968, 443 с.
2. Грушевицкая Т.Г., Садохин А.П. Концепции современного естествознания. М.: Юнита 2003, 670 с.
3. Кант И. Сочинения. В 6-ти т. Т. VI. М.: Аст, 2003, 312 с.
4. Квачахия В.М. Бессознательное в структуре психической деятельности: дискуссионные проблемы // Социологические исследования, 1981, № 2, с. 124-138.
5. İsmayılov F. Ziqmund Freyd. Bakı: Gənclik, 1994, 120 s.
6. Мальцев В.И. Еще раз о понимании психики // Философские науки, 1968, № 1, с. 22.
7. Мурейко Л.В. К философскому понятию бессознательного / Проблема сознания в философии и научном познании. Ленинград: ЛГУ, 1985, 118 с. (54-61)
8. Спиркин А.Г. Сознание и самосознание. М.: Эдиториал, УРСЕ, 2004, 312 с.
9. Фрейд З. Психология бессознательного М.: ИФРАН, 2002, 452 с.

10. Фрейд З. Я и Оно. М.: ИЛ, 1924, с. 22
11. Фрейд З. Введение в психоанализ. М.: 2000, ИФРАН, 2001, 424 с.
12. Шерозия А. К проблеме сознания и бессознательного психического. Тбилиси: 1969, 512.
13. Юнг К.Г. Об архетипах коллективного бессознательного // Вопросы философии, 1988, № 1, с.65-72.

## ФИЛОСОФСКАЯ СУЩНОСТЬ БЕССОЗНАТЕЛЬНОГО В КОНТЕКСТЕ ФРЕЙДИЗМА

**К.Н.ГАХРАМАНОВА**

### РЕЗЮМЕ

Психика есть сложный и противоречивый феномен, который присущи человеческому бытию. Вникнуть в сущность этого противоречивого феномена долгое время не представлялось возможным. И в XX веке для изучения психики человека создается метод психоанализа, который заполнил эту пустоту.

Метод психоанализа впервые создан и обоснован австрийским ученым З.Фрейдом. З.Фрейд создал картину процессов бессознательного. Он стремился изучить некоторые проявления этого феномена. В статье речь идет о философской сущности бессознательного, о его структуре, связи его с сознанием, и наконец, его значении в человеческой жизни. Там же дается информация о том, что не все действия человека не регулируются только актами сознания.

## THE PHILOSOPHICAL ESSENCE OF THE UNCONSCIOUS IN THE CONTEXT OF PHREUDISM

**K.N.GAHRAMANOVA**

### SUMMARY

Psychology is a complex and contradictory phenomenon which is inherent to the human life. Deep consideration of the essence of this contradictory phenomenon seemed to be impossible for a long time. The method of psychoanalysis which could fill this gap was formed in the XX century for the study of a man's psychology.

The method of psychoanalysis was first created and grounded by the Austrian scientist Z.Freud. Z.Freud tried to study the appearance of the unconscious and some manifestations of this phenomenon. The article deals with the philosophical essence of the unconscious, its structure, its ties with the conscious, and its significance in human life. The article illustrates that not all the behaviour of a man is regulated through the acts of consciousness.